# “NAXÇIVAN EKOLOJİ MAARİFLƏNDİRMƏ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNƏ DƏSTƏK” İCTİMAİ BİRLİYİNİN MƏQSƏDLƏRİ VƏ GƏLƏCƏK FƏALİYYƏTİ

**Aytən Kərimova**

*“Naxçıvan Ekoloji Maarifləndirmə və Ətraf Mühitin Mühafizəsinə Dəstək” İctimai Birliyi*
*AR ETN Təbii Ehtiyatlar İnstitutu (Naxçıvan)*
*aytenkerimova567@gmail.com*

Ekoloji problemlər bəşəriyyətin mövcud olmasının əsas problemidir. Sürətli iqtisadi və texniki inkişaf dünyada ekoloji problemlərin artmasına gətirib çıxarmışdır. Son illərdə ekosistemlərə təhlükə törədən amillərin sayı artmış, insan fəaliyyəti nəticəsində ekosistemlər deqradasiyaya uğramışdır. Səhralaşma, hava, su və torpaq çirkliliyi, zərərli tullantılar, təbii mənbələrin tükənmək üzrə olması, dəniz və okeanların çirklənməsi, canlı növlərin nəsillərinin tükənməsi, iqlim dəyişiklikləri bu problemlərdən bir neçəsidir. Bu səbəblər ətraf mühitin qorunub saxlanılması və davamlı istifadəsinə dair ciddi tədbirlərin görülməsini tələb edir.

Ölkəmizdə ətraf mühitin qorunması daim diqqət mərkəzindədir, buna baxmayaraq, bütün dünyada olduğu kimi, ölkəmizdə, həmçinin Naxçıvan Muxtar Respublikasında da bir sıra ekoloji problemlər mövcuddur ki, bunlara kəskin iqlim dəyişikliklərini və bu səbəbdən yaranan müxtəlif növ xəstəlikləri, suvarma sularının kəskin azalmasını və bunun nəticəsində yaşıllıq sahələrinin vaxtından əvvəl məhv olmasını, ərazidə qış aylarında qar, digər aylarda yağış yağmasını bu problemlərə misal göstərmək olar. Yaşıllıqların salınması istiqamətində respublikada böyük işlər görülməsinə baxmayaraq, onların bu prosesi həyata keçirmək mexanizminə düzgün riayət edilmir.

Bu problemlərin səbəbi təbiətdən səmərəli şəkildə istifadə edilməməsi və insanların bu haqda məlumatlarının az olmasıdır. Ekoloji problemlərin həllində ictimaiyyətin maarifləndirilməsi ən vacib ünsürlərdən biridir. İctimaiyyətin çirklənmiş ərazilərin bərpası, su ehtiyatlarının mühafizəsi, meşə və yaşıllıq sahələrinin artırılması, aztullantılı iqtisadi inkişafın təmin edilməsi və ekoloji problemlərin digər yolları haqqında məlumatları olduqca azdır. Bunun üçün də əhali arasında ekoloji təbliğatın və maarifləndirmənin gücləndirilməsinə ehtiyac vardır. Bütün vacib mövzularda olduğu kimi, gələcəyimiz üçün təbiəti qorumaq və ekoloji problemlər haqqında maarifləndirmə hələ kiçik yaşlarda, yəni məktəb yaşlarından başlamalıdır. Ekoloji problemlər haqqında fizika, kimya, həyat bilgisi və başqa fənlərin daxilində məlumatlar verilsə də, bunlar kifayət qədər deyildir.

***Ekoloji maarifləndirmə ekoloji cəmiyyəti formalaşdıran başlıca amildir!***

Ümummilli Lider Heydər Əliyevin sözlərini rəhbər tutaraq, layihəni məqsədinə çatdıracağıq!

“Naxçıvan Ekoloji Maarifləndirmə və Ətraf Mühitin Mühafizəsinə Dəstək” İctimai Birliyi Naxçıvan Müəllimlər İnstitutunun Tələbə Gənclər Təşkilatının sədri, həmin institutun doktorantı, ictimail fəal könüllü Məmmədova Aygül Eynulla qızı və AR ETN Təbii Ehtiyatlar İnstitutunun (Naxçıvan) əməkdaşı, Naxçıvan Dövlət Universitetinin doktorantı, təlimçi, ictimai fəal könüllü Kərimova Aytən Elxan qızı tərəfindən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında və “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamları rəhbər tutularaq təsis edilmişdir.

Birliyin təsis edilməsi muxtar respublikada fəaliyyət göstərən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, eyni zamanda bu sahədə fəaliyyət göstərən digər qurumların işinə olduqca müsbət təsir göstərəcək. Birliyin qurucuları Ulu Öndər Heydər Əliyevin “Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız” sözlərini şüar edərək, daha əvvəl də ekologiya və ətraf mühitin mühafizəsi ilə əlaqədar maarifləndirmə tədbirləri, təbiətdə müxtəlif ekskursiyalar təşkil edib, ətraf mühitin mühafizəsini daim diqqət mərkəzində saxlamışlar.

Birliyin əsas məqsədi mütəxəssislərlə birlikdə mövcud problemləri nəzərdən keçirilərək, imkan daxilində ekoloji təhlükəsizliyin və ekoloji tarazlığın təmin edilməsi, təbii ekoloji sistemlərə təsərrüfat və digər fəaliyyətlər nəticəsində dəyə biləcək zərərlərin qarşısının alınması üçün təkliflər verilməsi, çirklənmiş torpaqların bərpası və münbitliyinin artırılması, suların bioloji sərvətlərindən səmərəli istifadə, onların qorunması, təbiətdən daha səmərəli istifadənin təşkili – yeraltı sulardan və yerüstü təbii sərvətlərdən, mineral xammal ehtiyatlarından səmərəli istifadə və onların bərpası, mühafizəsi, bioloji müxtəlifliyin,

atmosfer havasının mühafizəsi, tullantılarla bağlı fəaliyyət, ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə, qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqinin təmin edilməsi, habelə fəaliyyət istiqamətlərinin tədqiqi və təkmilləşdirilməsi üzrə aidiyyəti qurumlarla fəaliyyətin əlaqələndirilməsi və birgə zəruri tədbirlərin görülməsi, innovativ fəaliyyətin dəstəklənməsi və digər cari məsələlərin həlli yollarının axtarılıb tapılmasında könüllü dəstələrin iştirakı ilə müxtəlif vasitələrlə dəstək verilməsindən ibarətdir.

Digər tərəfdən, müxtəlif yaş qrupundan olan insanlara ekologiyanın və ətraf mühitin mühafizəsi ilə bağlı təlimlər keçirilməsi, məktəblərdə uyğun dərnəklərin yaradılması, müxtəlif yaş qrupları arasında ekoloji problemlərlə bağlı diskussiyaların aparılması, ekoloji fəlakətlərin mahiyyəti barədə müəyyən təsəvvürlərin yaradılması, ətraf mühit, insan və təbiət arasında qarşılıqlı əlaqələrin vacibliyinin aşılanması, ekoloji mədəniyyətin formalaşmasına yönəldilmiş ekoloji biliklərin öyrədilməsi, özlərinin birbaşa təbiətin tullantılardan təmizlənməsi və yaşıllaşdırma işlərində iştirak etmələri nəticəsində təbliğat və maarifləndirmənin yararlılığının əldə olunması, nəticədə daim təbiəti mühafizə edən, təbiət çirklənmələrinin qarşısını almaq üçün çalışan, gələcək dünya üçün bilikli və daha faydalı insanlar kimi formalaşmaqdır.

Bundan əvvəl Aytən Kərimova "Təhsildə inkişaf və innovasiyalar üzrə VI qrant müsabiqəsi"ndə qalib olmuş, ekoloji maarifləndirmə və ətraf mühitin mühafizəsi ilə əlaqədar "Gələcək üçün əl-ələ!" layihəsini Kəngərli rayonunun 4 məktəbində həyata keçirmişdir. Aygül Məmmədova isə Tələbə Gənclər Təşkilatının tərkibində fəaliyyət göstərən "Ekologiya klubu" vasitəsilə Naxçıvan Müəllimlər İnstitutunda ekoloji maarifləndirmə və ətraf mühitin mühafizəsi ilə bağlı çoxsaylı tədbirlər həyata keçirmişdir. Birlik fəaliyyətə başladığı vaxtdan Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində müxtəlif maarifləndirmə tədbirləri təşkil edilmişdir. Hər iki ictimai fəal yaradılan birlik vasitəsi ilə "Yaşıl dünya naminə həmrəylik ili"ndən etibarən bu sahədə fəaliyyətlərini birlikdə davam etdirəcəklər.